**“Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7, № 4 (I kitab), maddə 324, № 6, maddələr 524, 525, 527, № 12 (I kitab), maddə 1124; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 328-VIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin birinci hissəsinin “b” bəndinin ikinci abzasının birinci cümləsində “, ehtiyatdan daxil olanlar və qadınlar – 3 il” sözləri “və ehtiyatdan daxil olanlar – 3 il, qadınlar – 6 ay” sözləri ilə əvəz edilsin;

1.2. Əsasnaməyə 7 saylı əlavə üzrə:

1.2.1. “Öhdəlik” hissəsinin “a” bəndində “ilə” sözü “ay/il” sözləri ilə, “qulluq” sözü “xidmət” sözü ilə əvəz edilsin;

1.2.2. hər dörd halda “Həqiqi hərbi xidmət müddətinin uzadılması” hissələrində “il,” sözü “ay/il,” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56 (Cild I); 2024, № 2, maddə 137, № 4, maddə 363, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddə 4, № 4 (I kitab), maddələr 305, 311, № 6, maddələr 525, 527, № 12 (I kitab), maddə 1124; Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 328-VIIQD nömrəli Qanunu) 38.1.2-ci maddəsinin birinci cümləsində “daxil olanlar, ehtiyatdan daxil olanlar və

qadınlar – 3 il” sözləri “və ehtiyatdan daxil olanlar – 3 il, qadınlar – 6 ay” sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 mart 2026-cı il
№ 381-VIIQD